

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 fevral 2022-ci il №15 (2626) https://mod.gov.az Qiymәti 30 qәpik


# Müzəffər Ali Baş Komandan, Xilaskar Lider

*Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddiaları ilə başlayan münaqişə şanlı Qələbə ilə başa çatdı. Prezident İlham Əliyevin Ali Baş Komandan kimi qətiyyəti, siyasətçi kimi iradəsi, diplomat kimi müdrikliyi ilə torpaqlarımız işğaldan azad edildi.*

Vətən müharibəsinin Şanlı Qələbəmizlə başa çatmasından bir ildən çox vaxt keçib. Bu müddətdə ilk Qələbə paradımız keçirildi. Tarixi Zəfərimizin birinci ildönümü ölkəmizdə, dünyanın hər yerində yaşayan soydaşlarımız tərəfindən fəxr və qürur hissi ilə qeyd edildi. Artıq bir ildir ki, gözəl Şuşamızda dünyamiqyaslı tədbirlər, festival və müsabiqələr keçirilir. Düşmən tərəfindən viran edilmiş şəhər və kəndlərimizdə bərpa-quruculuq işləri uğurla davam etdirilir. Ötən hər gün, hər həftə, hər ay vətəndaşlarımızı ata-baba yurdlarına yaxınlaşdırır. Hamımız qədim elimizə böyük qayıdışı səbirsizliklə, sevinclə gözləyirik.

Vətən müharibəsində Zəfər qazandıqdan sonra Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında həyata keçirilən hərbi əməliyyatlar, Azərbaycan Ordusunun apardığı döyüşlər hərtərəfli təhlil edilir, nəticələri öyrənilir. Biz isə məsələyə başqa prizmadan - bəşəriyyətin ən ali, fundamental dəyəri olan insan həyatının xilas edilməsi prizmasından, humanistlik zirvəsindən yanaşmaq istərdik. Müharibədə insan həyatının xilas edilməsindən danışanda ilk olaraq ağxalatlı qəhrəmanlar - hərbi həkimlər göz önünə gəlir. Lakin təcrübə göstərir ki, sərkərdənin bacarıqlı, düşünülmüş addımları, qətiyyəti və siyasi iradəsi, uğurlu diplomatik fəaliyyəti minlərlə insanın həyatını xilas etməyə qadirdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsi dövründə bir sıra rayonları diplomatik gedişlə işğaldan azad edərək Xilaskar Sərkərdə kimi tarixə düşdü. Bu addımla əsgərlərini qorudu. Uzun illər səbirlə, təmkinlə torpaqlarımızın danışıqlar yolu ilə azad edilməsinə çalışması da məhz Prezident İlham Əliyevin insan həyatına verdiyi dəyərin təcəssümüdür.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Vətən müharibəsindən danışarkən bildirmişdi ki, cənab Ali Baş Komandan şəxsən döyüş əməliyyatlarına rəhbərlik edir, əməliyyat vəziyyətinə uyğun tapşırıqlar verirdi. Bu göstərişlərin sırasında bir xüsusi tapşırıq da vardı…

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Vətən müharibəsi dövründə hərbi komandanlığa hər gün dəfələrlə təkrar etdiyi xüsusi tapşırıq əməliyyat planlarında şəxsi heyət itkisinin minimum səviyyəyə endirilməsini təmin etmək idi. Dövlət başçısının döyüşlər zamanı hər tapşırığının əsas qayəsi daha çox insan həyatını xilas etmək idi. Prezident İlham Əliyev təkcə öz hərbçilərimizin deyil, hətta düşmən əsgərlərinin mənasız xülya, sonu olmayan bir yol üçün ölməsini, Ermənistan rəhbərliyinin şəxsi ambisiyalarına, siyasi oyunlarına qurban olmasını belə istəmirdi. Bu isə yüksək humanizmin göstəricisidir. Müzəffər Ali Baş Komandan hələ müharibədən əvvəl də bu niyyətini açıq-aşkar bəyan etmişdi.



"Biz heç vaxt müharibə istəmirik, biz sülh yolu ilə torpaqlarımızın azad edilməsinin tərəfdarıyıq. Lakin biz heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranması və torpaqlarımızın işğalda qalması ilə barışmayacağıq. Qarşı tərəf sülh danışıqlarına məhəl qoymazsa, işğal etdiyi ərazilərimizi xoşluqla tərk etməzsə, o zaman səbri tükənmiş xalqımız və qüdrətli ordumuz torpaqlarımızı hərbi yolla azad edəcək və ərazi bütövlüyümüzü bərpa edəcək. Bu, bizim beynəlxalq qanunlara görə təmin olunmalı hüququmuz, haqqımızdır. Bizim yolumuz haqq yoludur və biz tarixi ədaləti öz gücümüzlə bərpa etməyə qadirik. Əgər erməni əsgəri Azərbaycan torpaqlarında ölmək istəmirsə, o zaman Ermənistan silahlı birləşmələri qeyd-şərtsiz torpaqlarımızdan çıxmalıdır". Dövlət başçısının uzun illər müxtəlif beynəlxalq kürsülərdən səsləndirdiyi bu fikirlər humanizm ideyalarının carçısı idi. Dövlət də, xalq da, ordu da məhz bu ideyanı rəhbər tutdu. Əgər düşmən sülhə razı olmazsa, "Hər şey Vətən üçün" deyərək döyüşə hazırlaşdı. Ordu quruculuğu istiqamətində atılan addımlar, həyata keçirilən islahatlar, yeni müasir silahların arsenalımıza daxil olması da məhz bu xüsusi tapşırığın icrasına yönəlmişdi: mümkün qədər az insan itkisinə yol verməklə torpaqlarımızı işğaldan azad etmək. Bir ideya, bir amal ətrafında "Dəmir yumruq" kimi birləşən xalqımız müqəddəs vəzifənin öhdəsindən 44 günlük Vətən müharibəsində uğurla gəldi. Haqq-ədalət zəfər çaldı və torpaqlarımız qəhrəman övladlarımızın qanı, canı bahasına əsl sahibinə - Azərbaycan xalqına qaytarıldı. "Qarabağ Azərbaycandır!" şüarı ilə torpaqlarımızın azad edilməsi arzusu reallaşdı. Bu arzunun reallaşması regionda dövlətlərin iqtisadi inkişafını təmin etməyə xidmət edəcək bir çox yeni reallıqlar yaratdı. Fəxr edirik ki, Azərbaycanın sayəsində meydana gələn bu reallıqları artıq təkcə region ölkələri deyil, dünyanın aparıcı dövlətləri də müsbət qarşılayıblar.

Bu gün Vətən müharibəsi döyüşlərindən bir ildən çox vaxt keçdikdən sonra 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən prosesləri xatırlasaq, təhlil etsək görərik ki, Azərbaycan Respublikası Prezidentinin ən böyük Qələbəsi ərazilərimizin bir hissəsinin azad edilməsi ilə yanaşı, həm də minlərlə insanın həyatının xilas edilməsi və sağ-salamat evlərinə dönməsidir.

Döyüşsüz, artıq qan tökmədən üç rayonumuzun boşaldılmasına nail olmaqla Prezident İlham Əliyevin xilaskarlıq missiyası təkcə soydaşlarımızın - Azərbaycan Ordusunun əsgərlərinin deyil, hətta bizim torpaqlarımızı 28 ildən çox işğal altında saxlayan, yurd-yuvamızı talan edən düşmən ordusunun şəxsi heyətinə belə müsbət təsirini göstərdi ki, nəticədə minlərlə, bəlkə də on minlərlə erməni gəncin sağ-salamat evlərinə, ailələrinə qayıtmasına şərait yaradıldı. Yuxarıda qeyd olunanların mahiyyətini və əhəmiyyətini özündə ehtiva edən kifayət qədər inkaredilməz faktlar mövcuddur. Həmin faktlara diqqət yetirsək, bu addımın nəhəngliyinin mənzərəsini tam olaraq görmək mümkündür.

Məlum olduğu kimi, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatın müddəalarına əsasən, 2020-ci il noyabrın 20-dən Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu Ermənistan silahlı birləşmələri tərəfindən döyüşsüz boşaldılaraq Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib.

Fikrimcə, Yer üzündə min illər ərzində baş verən bir müharibə var ki, o döyüşdə iştirak etmək insana başucalığı gətirir və həlak olanlara - şəhidlərə əbədi həyat bəxş edir. Bu da Vətən müharibəsidir. 44 gün davam edən və xalqımızın Qələbəsi ilə başa çatan Vətən müharibəsi də bu qəbildəndir. Çünki bu müharibədə Azərbaycanın yalnız bir məqsədi var idi: Tarixi ədaləti bərpa etmək. Bu münaqişənin Qələbə ilə başa çatmasına nail olan Ali Baş Komandan regionun firavanlığına, iqtisadi inkişafına əvəzolunmaz töhfələr verdi.

İnsan həyatının dəyəri heç nə ilə ölçülə bilməz və bu, Allahın insana verdiyi ən şirin nemətdir. Vətən müharibəsində şəhid olan soydaşlarımız bütün dünyaya yenidən xatırlatdı ki, belə bir şirin, qiyməti biçilməz nemətdən könüllü vaz keçməyə dəyəcək yeganə dəyər Vətəndir. Bu ali dəyər uğrunda vuruşmaq, Allah yolunda şəhid olmaq qədər müqəddəsdir. Çünki bu yolda həlak olanlar ölmürlər, əbədiyyətə qovuşurlar. Qəlblərdə, könüllərdə, xatirələrdə, xəyallarda, yaddaşlarda, kitablarda, musiqilərdə, dastanlarda, kinolarda yaşayırlar. Bu savaşda canından keçənlər ən müqəddəs zirvəyə - şəhidlik zirvəsinə ucalırlar. Vətən müharibəsində canından keçənlər tarixə adlarını qızıl hərflərlə yazdılar. Onlar canlarını Vətən torpağını azad etmək naminə fəda etdilər. Bu gün fəxrlə, qürurla deyə bilərik ki, şəhidlərimizin xatirəsi ehtiramla anılır.

**(Ardı 2-ci səhifədə)**

# Müzəffər Ali Baş Komandan, Xilaskar Lider

(Əvvəli 1-ci səhifədə)

**Müharibə rəqəmlərin dili ilə**

Birinci Qarabağ müharibəsində 11 min 557 hərbi qulluqçumuz şəhid olub. Həmçinin 3890 azərbaycanlının itkin düşməsi haqda AŞPA-ya hesabat təqdim olunub. Qarşı tərəfin açıqlamalarına əsasən, 30 illik münaqişə zamanı Ermənistan ordusu ən azı 12 min 500 şəxsi heyətini itirib. Açıq mənbələrdən alınan məlumatlara əsasən, Aprel döyüşlərində Ermənistan ordusu 300-dən çox ölən, 500-dən çox isə yaralanan olmaqla canlı qüvvə sarıdan itki verib. Ermənistan istintaq komissiyasının 2022-ci il 19 yanvar tarixli məlumatına əsasən isə 44 günlük müharibə zamanı Ermənistan ordusunun canlı qüvvə sarıdan itkiləri aşağıdakılardır: 3809 həlak olan, 11 min yaralı və 199 nəfər itkin düşən. Qeyd etmək yerinə düşər ki, bu rəqəmlərə Qarabağ iqtisadi zonasında məskunlaşan ermənilər arasında ölən və yaralananların sayı daxil deyildir. Onu da nəzərə almaq lazımdır ki, Ermənistan daim itkilərini gizlədir, ictimaiyyətə yanlış məlumatlar təqdim edir. Xüsusilə Ermənistan Qarabağdan olan ermənilərin ölməsi faktını ciddi cəhdlə gizlədir. Ona görə də qarşı tərəfin itkilərinin daha çox olması istisna edilmir. Təqdim edilən rəqəmlər ancaq rəsmi və açıq mənbələrdən əldə olunmuş rəqəmlərdir.

2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatdan sonra Azərbaycan nəinki itkin düşənlərin axtarışlarına şərait yaradıb, hətta 1704 nəfər erməni hərbçinin cəsədinin tapılaraq geri qaytarılmasına şərait yaradıb. Bu da xalqımızın və dövlətimizin humanistliyinin birbaşa göstəricisidir. Ermənistan isə hələ də Birinci Qarabağ müharibəsində itkin düşmüş azərbaycanlıların taleyinə aydınlıq gətirməkdən boyun qaçırır ki, buna da beynəlxalq qurumlar hüquqi və mənəvi qiymət verməlidir.

İnsan həyatına nə qədər böyük dəyər veririksə, bir xalq olaraq Vətən yolunda həyatını qurban verənlərə də o qədər yüksək dəyər və qiymət verməyi bacarırıq.

Qəddarlığı və zalımlığı ilə dünyada tanınan bir siyasətçi deyirdi ki, bir nəfərin ölümü faciədir, min nəfərin ölümü isə statistikadır.

İkinci Qarabağ müharibəsində 2908 soydaşımız şəhidlik zirvəsinə ucaldı. Həmin günlər şəhidlərimizin dəfn mərasimini izləyərkən bütün dünya şahid oldu ki, Azərbaycan xalqı üçün hər bir vətəndaşı dəyərlidir. Biz stereotipləri üstələyərək misal çəkdiyimiz ifadənin tam əksini göstərdik, bu fikrin əksini bütün dünyaya bəyan etdik. Hər bir döyüşçümüzün həlak olması, düşmən xisləti sayəsində qətl edilən hər bir mülki sakinimizin itkisi hamımızın faciəsi olsa da, heç vaxt adi statistika olmadı. Hər bir faktı ürək ağrısı ilə eşitsək də, hüznlə qarşılasaq da, şəhidlərimizi son mənzilə dəyanətlə, ehtiramla, izdihamla, coşqu ilə, ordumuza daha böyük dəstəklə yola saldıq. Hər bir şəhid qürur, fəxr mənbəyimiz oldu. Onlar bu gün də, gələcəkdə də, əbədiyyən xalqımız tərəfindən hörmətlə, ehtiramla yad ediləcək. Buna heç kəs zərrə qədər şübhə etmir. Övlad itkisi nə qədər acı olsa da, Azərbaycan xalqı sarsılmadı. Şəhid ailələri, torpaqlarımızın azadlığı naminə canından keçən övladlarının ucaldıqları zirvəni və daşıdıqları müqəddəs Şəhid adını qürur, fəxr mənbəyi olaraq qəbul etdi, şəhidlərimizin cənazələrinə sarılmış üçrəngli bayrağımızı öpüb gözlərinin üstünə qoyaraq "Təki Vətən sağ olsun" dedilər.

Başımızı dik tutaraq vuruşduq, Qələbə qazandıq. Ordu döyüş meydanında düşmənlə ölüm-dirim savaşına atıldı, xalq isə arxa cəbhədə haqq savaşımıza misilsiz dəstək verdi. Vətən müharibəsi bir daha sübut etdi ki, insanın gözünü qırpmadan canından keçməyə, xoşbəxt həyatını qurban verməyə dəyən dəyərlərdən ən qiymətlisi, ən mühümü Vətənin müstəqilliyi, ölkəmizin suverenliyi, torpaqlarımızın işğaldan azad edilməsidir. Qürurverici faktdır ki, istər müharibə zamanı, istər sonrakı dövrdə Ali Baş Komandan İlham Əliyevin elə bir çıxışı, elə bir müsahibəsi, elə bir bəyanatı olmadı ki, orada şəhidlərimiz xatırlanmasın, xidmətləri, igidlikləri anılmasın, qiymətləndirilməsin. Bu da onun sərkərdə kimi verdiyi qiymətin, hörmət və ehtiramın təcəssümüdür.



2016-cı ilin Aprel döyüşlərində minimum itki verməklə düşmənə sarsıdıcı zərbələrin endirilməsi, 2000 hektardan çox ərazinin, Lələtəpə kimi strateji əhəmiyyətli yüksəkliyin azad edilməsi, 2018-ci ilin mayında cəmi bir şəhid verməklə Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi uğurlu əməliyyat sayəsində 11 min hektardan artıq ərazinin azad edilməsi, nəhayət, Tovuz döyüşlərində Ermənistan silahlı birləşmələrinin dövlət sərhədimiz istiqamətində amansız hücumlarının inamla dəf edilməsi Vətən müharibəsində şanlı Zəfərimizi şərtləndirib.

Müzəffər Ali Baş Komandanın xüsusi tapşırığı haqqında müdafiə naziri general-polkovnik Zakir Həsənov ilk dəfə mətbuata 2018-ci ildə jurnalistlərin suallarını cavablandırdıqda açıqlama vermişdi. Həmin vaxt jurnalistin ordumuzun qüdrətlənməsi və arsenalımızın gücləndirilməsi məqsədilə hansı silah-sursatların alındığı barədə sualını cavablandırarkən general-polkovnik Zakir Həsənov bildirmişdi: "Silahlı Qüvvələrimizin Ali Baş Komandanı xüsusi tapşırıq verib ki, elə silahlar, elə texnika, elə avadanlıq alınmalıdır ki, Azərbaycan Ordusu qarşısında duran müqəddəs missiyanın həyata keçirilməsi ilə bağlı döyüş tapşırıqlarını icra edərkən canlı qüvvə sarıdan minimum itki versin". Yəni, Prezident İlham Əliyevin Ali Baş Komandan kimi fəaliyyətə başladığı gündən ordu quruculuğu ilə bağlı gördüyü işlərin, apardığı islahatların, yaradılan şəraitin, keçirilən təlimlərin ən başlıca məqsədi - ordumuzun peşəkarlığının artırılması, müasir, silah və hərbi texnika ilə təchiz edilməsi idi və bununla Ali Baş Komandan istəyirdi ki, biz doğma torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə az itki verərək qalib gələk.

Son illər ölkəmizdə həyata keçirilən islahatlara, dövlətimizin keçdiyi inkişaf mərhələlərinə, ordumuzda keçirilən təlimlərin sayına və döyüş hazırlığı məşqlərinin intensivliyinə nəzər salsaq, vətəndaşlarımızın həyatının xilası naminə görülən bütün bu işlərin nə qədər diqqət, qayğı, zəhmət və vəsait hesabına başa gəldiyini aydın şəkildə görə bilərik.

**Heç bir itki insan həyatından üstün və dəyərli deyildir**

Müdafiə naziri Qaraheybət Təlim Mərkəzində KİV nümayəndələrinə müsahibəsində bildirmişdi ki, bir taborun bir gün döyüş aparması üçün təxminən bir vaqon sursat lazımdır. Bu fikirdən irəli gələrək hesablamalar aparsaq, döyüşlərin uzun sürməsinin hansı iqtisadi itkilərə səbəb olacağını da aydın təsəvvür edə bilərik. Təsəvvür edin ki, bir gün ərzində bir tabor döyüşə girir və bu tabor döyüş nizamnamələrinin tələblərinə və əməliyyatın niyyətinə uyğun tam dəstəkli döyüş aparmaq üçün bir gün ərzində yüz minlərlə dəyəri olan silah-sursat istifadə edir. Bu hesablamaları cəmi 10 misli qədər artıraraq, elə təkcə bu faktoru düşünsək, ölkəmizin iqtisadi və hərbi qüdrətinin miqyasını təsəvvür etmək mümkündür. Döyüşlərin ətraf mühitə, flora və faunaya verdiyi ziyanı da nəzərə alsaq, müharibənin ölkəmizə nəyin bahasına başa gəldiyini təsəvvür etmək mümkündür. 44 gün ərzində bölmələrimiz tərəfindən Ermənistan silahlı birləşmələrinin məhv edilmiş və qənimət kimi götürülmüş hərbi texnikasının dəyərini əks etdirən rəqəm də bu müharibənin hər iki tərəfə vurduğu iqtisadi ziyanın dəyərini hesablamaq üçün yetərlidir. Sadəcə, bir rəqəm. Hərbi-siyasi icmalçı və ekspert Ramil Məmmədlinin təxmini hesablamalarına əsasən, hətta ən kobud hesablamalara görə, Ermənistana məxsus 3-4 milyard ABŞ dolları məbləğində hərbi texnika məhv edilib və qənimət kimi götürülüb. Şəhər və kəndlərimizin ermənilər tərəfindən raket və artilleriya atəşinə tutulması nəticəsində dəyən ziyan da milyonlarla ölçülür.

Lakin bütün bunların hər birini bərpa etmək mümkün olduğu üçün, bunların heç biri insan həyatının dəyəri, qiyməti ilə müqayisə oluna bilməz. Məhz buna görə də Ali Baş Komandan bütün iradəsini, qətiyyətini, gücünü torpaqlarımızın tez bir zamanda azad edilməsinə, müharibənin tez bitməsinə, daha çox insan həyatının xilas edilməsinə yönəltmişdi. Üç rayonumuzun düşmən tərəfindən boşaldılması, döyüşsüz azad edilməsi də Vətən müharibəsində əldə etdiyimiz ən dəyərli nəticələrdən, ən böyük qələbələrdən biridir.

**Xilaskarlıq missiyasını səciyyələndirən amillər və son 200 il ərzində imza atılan ən möhtəşəm Qələbə**

İnsan həyatının qorunmasından, itkilərin az olmasından danışan Ali Baş Komandan hətta qarşı tərəfin də itkilərinə həssaslıqla yanaşıb. Uzun illər düşmənin məkrli planlarına, çoxsaylı təxribatlarına baxmayaraq, dövlətimizin başçısının səbrlə, təmkinlə sülh danışıqlarının davam etdirilməsinə, beynəlxalq təşkilatların, qrupların missiyalarını yerinə yetirməsinə şərait yaratması, rəvac verməsi də məhz humanistlikdən, mənasız yerə qan tökülməsinin qarşısının alınmasına çalışmasından irəli gəlir. "Əgər münaqişənin sülh yolu ilə həlli mümkündürsə biz bunun üçün hər an hazırıq", - deyən Prezidentimiz, eyni zamanda, danışıqlar baş tutmazsa torpaqlarımızı hərb yolu ilə azad etməyə qadir olduğumuzu da bütün dünyaya dəfələrlə bəyan etmişdi. Sülh danışıqları zamanı belə Ermənistan tərəfi təxribatlardan əl çəkmir, Azərbaycanın yeni ərazilərinin işğal ediləcəyi kimi boş hədələr də səsləndirirdi. Vətən müharibəsi də məhz qarşı tərəfin bütün cəbhə boyu genişmiqyaslı təxribatları və yaşayış məntəqələrimizi atəşə tutmasına cavab olaraq başlamışdı. Vətən müharibəsinə qədər baş verən proseslərin və üçtərəfli Bəyanatın maddələrinin təhlili göstərir ki, Ermənistan rəhbərliyi bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün heç bir səy göstərmirdi. Əksinə, sona çatması üçün çalışa bilərdi. Lakin bunu etmədi, bu istiqamətdə konstruktiv addımlar atmadı, əksinə, hər fürsət düşdükcə min bəhanə ilə danışıqların pozulmasına çalışdı. Bu da Ermənistan rəhbərliyinin öz soydaşlarına verdiyi dəyərdi və Ermənistan elitasının şəxsi maraqlarını öz xalqının həyatından üstün tutmasının göstəricisidir.

Ağdam rayonunun bir hissəsinin düşmən işğalında olduğunu nəzərə alaraq, bu rayonla bağlı nəyisə geniş yazmadan, sadəcə, onu bildirmək istərdim ki, işğalçının silahlı bölmələri tərəfindən ən çox minalanmış, ən çox möhkəmləndirilmiş düşmən mövqeyi olan, bir neçə eşelondan ibarət sədlər qurulmuş rayon da məhz Ağdam idi. Düşmən Azərbaycan Ordusunun bu istiqamətdən gələcəyini düşünərək güclü hazırlıq işləri görmüş və ən böyük qüvvələrini də məhz bura cəmləyərək qanlı döyüşlərə, ordumuza sarsıdıcı zərbələr endirməyə hazırlaşmışdı.

Faktlardan danışarkən ilk olaraq onu qeyd etmək istəyirəm ki, 1930-cu ildə yaradılan Kəlbəcər və Laçın rayonunun ərazisi 5 min kvadratkilometrə yaxındır. Laçın rayonunun 127, Kəlbəcərin isə 147 yaşayış məntəqəsi var ki, bunların da böyük əksəriyyəti dağlıq, sərt relyefli, yolu-izi düşmən tərəfindən minalanmış, dağıdılmış ərazilərdədir. Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur. Ən hündür zirvələri Camışdağ dağı (3724 m), Dəlidağ (3616 m) və Böyük Hinaldağdır (3367 m). Ərazinin çox hissəsi meşəlikdir. Demək olar ki, eyni mənzərənin bənzərini Laçın rayonu ərazisində də görmək mümkündür. Bütün bu nüansları sadalamaqda məqsəd odur ki, həmin rayonlar uğrunda aparılması planlaşdırılan döyüş əməliyyatlarının miqyasını heç olmasa cüzi də olsa təsəvvür etmək imkanı yaransın. Ən yüksək zirvələrin işğal dövründə erməni silahlı birləşmələrinin nəzarətində olmasını, döyüş mövqeləri, atəş nöqtələri yaradılmasını, səngərlərin qazılmasını da nəzərə alsaq, bu rayonların mənfur düşməndən azad edilməsi üçün ordumuzun necə qanlı döyüşlər aparması, hərbi əməliyyatlar planlaşdırıb keçirməsi barədə hətta hərbi sahədən az da olsa anlayışı olan insanlarda daha aydın təsəvvür yaranacağına inanırıq. Yaxşı yadımdadır cənab Ali Baş Komandan bir neçə çıxışında bildirmişdi ki, bizim əsgər həm düşmənlə, həm də təbiətin, relyefin çətinliklərinə qarşı mübarizə aparırdı.

(Ardı 3-cü səhifədə)

# Müzəffər Ali Baş Komandan, Xilaskar Lider

(Əvvəli 2-ci səhifədə)

Kəlbəcər və Laçın ərazisində ümumilikdə 274 yaşayış məntəqəsi olduğunu, hər yüksəklikdə düşmən mövqelərinin mövcudluğunu xatırladaraq bildirim ki, təxmini hesablamalara görə, Ağdam rayonunun kəndlərini də əlavə etməklə, üç rayon üzrə düşməndən azad edilməli, məhv olunmalı yüzlərlə, hətta minlərlə döyüş mövqeyi vardı. Hər düşmən mövqeyinin yağılardan təmizlənməsində cəmi 10 nəfər Vətən övladının şəhid olma ehtimalından irəli gələn hesablamalar aparsaq, onda həmin ərazilərin düşməndən döyüşərək azad edilməsinin ölkəmizə hansı itkilər hesabına başa gələcəyini bilmək çətin deyil. Yəni, bütün bunlar fərziyyələr yox, dəqiq hesablamalar, inkar edilməsi mümkün olmayan faktlar, reallıqlardı. Məhz bu faktorlar Prezident İlham Əliyevin xilaskarlıq missiyasının nəhəngliyinin və möhtəşəmliyinin göstəricisidir.

Beynəlxalq təşkilatların, dünyada hegemon dövlətlərin və Ermənistanı dəstəkləyən qüvvələrin döyüş əməliyyatlarının dayandırılması tələblərinə, çağırışlarına və israrlı müraciətlərinə Azərbaycan Prezidentinin tək şərti sülhün bərqərar olması üçün qarşı tərəfin rayonların boşaldılmasına dair öz üzərinə öhdəlik götürməsi və Ermənistan silahlı birləşmələrinin rayonlarımızdan çıxarılması ilə bağlı konkret tarixlər göstərilən qrafik təqdim edilməsi idi. Bütün təzyiqlərə, təsirlərə, təkidlərə rəğmən Prezident İlham Əliyev sözündən dönməyərək qətiyyəti, siyasi iradəsi və xalqın dəstəyi ilə bu tələbin yerinə yetirilməsinə nail oldu. Nəticədə bu tələb 10 noyabr tarixində imzalanan üçtərəfli Bəyanatda öz əksini tapdı. Azərbaycanın yeganə tələbi və istəyi haqq-ədalətin bərqərar olunması və işğal edilmiş ərazilərimizin azad edilməsi idi ki, bu da xalqımızın qanuni haqqıdır.

Yəqin ki, hər kəs rayonlar boşaldılarkən erməni kolonlarının hərəkətini əks etdirən videosüjetləri yaxşı xatırlayır. Elə həmin dövrdə Ermənistan tərəfinin Rusiyanın vasitəçiliyi ilə Kəlbəcərdən çıxmaq üçün ərazinin böyüklüyünü arqument gətirərək əlavə vaxt verilməsini xahiş etdiyini də yəqin ki, hamımız xatırlayırıq. (Bəyanata əsasən 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılsa da, Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadılmışdır. Buna səbəb olaraq isə rayonun relyefinin mürəkkəb olması, ərazinin böyüklüyü göstərilmişdir. Azərbaycan Prezidenti yenə də humanistlik göstərərək buna razılıq vermişdir). Bunu bir daha qeyd etməkdə məqsəd odur ki, sadəcə düşünək, təsəvvür etməyə çalışaq ki, heç bir maneə olmadan, qarşı tərəf əgər döyüşsüz Kəlbəcərdən çıxmağa görə vaxt istəyirdisə, həmin ərazilərin hərbi əməliyyatlar sayəsində düşməndən təmizlənməsi bizə nə qədər insan, nə qədər vaxt və nə qədər maddi itkilər hesabına başa gələ bilərdi.

Qeyd olunan aspektləri nəzərə alaraq tam əminliklə deyə bilərik ki, bu müharibə uzunmüddətli, üzücü olmaqla böyük insan itkilərinə, iqtisadi, demoqrafik və təbii fəlakətlərə gətirib çıxara bilərdi. Bu da nəinki iki ölkəyə, ümumən regiona ağır fəsadlar yarada bilərdi. Prezidentin uzaqgörən siyasəti, qətiyyətli tələbi sayəsində üçtərəfli Bəyanat imzalanmasaydı, üç rayonumuz döyüşsüz boşaldılmasaydı, bəlkə də bu gün hələ də torpaqlarımızın azad edilməsi uğrunda gedən qanlı döyüşlər davam edirdi. Bunları nəzərə alaraq əminliklə deyə bilərik ki, üç rayonumuzun döyüşsüz azad edilməsi İlham Əliyevin bir lider, siyasətçi, diplomat, Ali Baş Komandan, sərkərdə kimi imza atdığı ən möhtəşəm Qələbədir. Bu Şanlı Zəfər ədalətin təntənəsidir və dünya tarixinə qızıl hərflərlə həkk olunmalıdır. Bunu danmaq, inkar etmək, əksini sübut etməyə çalışmaq, yersizdir, gülüncdür.

### Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü

Zamanın hər dövründə, hər bir qanlı müharibədə ən böyük qələbə - iradə, qətiyyət göstərərək, düzgün addımlar ataraq, düzgün qərarlar qəbul edərək müharibədə qalib gəlməklə yanaşı, maksimum insanın həyatını xilas etməyi bacarmaqdır. Əbəs yerə deyil ki, belə qələbələrə imza atanlar həm Müzəffər Sərkərdə, həm də Xilaskar Lider olaraq tarixə düşür, könülləri fəth edir, xatirələrdə, tarixin səhifələrində əbədi olaraq qalırlar.

44 günlük Vətən müharibəsində şanlı Zəfərimizdən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev, eyni zamanda, üç rayonumuzun düşməndən döyüşsüz azad edilməsinə nail olmaqla minlərlə insanın həyatını xilas edən, ölkəsinin vətəndaşlarının həyatının dəyərini hər şeydən uca tutan humanist Xilaskar Lider və Sərkərdə kimi də adını tarixə qızıl hərflərlə yazdı və bir sərkərdə olaraq son 200 ilin ən möhtəşəm, ən parlaq Qələbəsinə, şanlı Zəfərə imza atdı. Bu da Azərbaycan xalqının həyatında ən qürurverici və əbədiyyən unudulmayacaq tarixi hadisədir.

**Kapitan
Məhəmməd NƏSİRLİ
"Azərbaycan Ordusu",
İsa ELDAROĞLU
hərbi jurnalist,
Azərbaycan Jurnalistlər
Birliyinin üzvü**

## Təlim

# "Peşəkarlığımız artdıqca özümüzü daha da güclü hiss edirik"



*Çöl məşğələsinin həlledici anlarıdır. Minaatan heyəti silahı "döyüş" vəziyyətinə gətirərək hədəfə atəş açmağa hazırlaşır. Heyət nəfərləri üzərlərinə düşən tapşırığı bacarıqla yerinə yetirirlər. Minaatan heyəti tələb olunan vaxt çərçivəsində qurğunu "döyüş" vəziyyətinə gətirərək atəş açmağa hazır dayanıb. Komandir əmr verən kimi minaatanlar hədəfləri dəqiq atəşlə məhv edəcəklər.*

Fasilə zamanı çöl məşğələsində iştirak edən minaatan heyəti ilə görüşüb tanış oldum. Minaatan komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Səbair Rüstəm oğlu Rüstəmov dedi ki, təlim-məşqlər səmərəli keçir, daim döyüş hazırlığımızı artırırıq. "Budur, yenə də çöl məşğələsində yeni döyüş vərdişlərinə yiyələnirik. Bu bizi uğurlara aparır. Məşğələnin hər dəqiqəsi bizim üçün qiymətlidir. Bu gün döyüş atışlı taktiki-təlim keçirilir. Komanda verilən kimi heyət nəfərləri minaatan qurğusunu "döyüş" vəziyyətinə gətiriblər. İndi komandirlərin növbəti əmrlərini gözləyirik. Koordinatlar müəyyən edilən kimi komandirin əmri ilə hədəflərə atəş açacağıq. Əminlik hissi ilə deyə bilərəm ki, hədəflər dəqiq vurulacaq. İndiyə qədər belə təlimlərdə çox iştirak etdiyimiz üçün təcrübəliyik".

Səbairlə söhbət edərkən onu da öyrəndim ki, o, Vətən müharibəsinin iştirakçısıdır. Talış və Suqovuşan yaşayış məntəqələrimizin azad edilməsi uğrunda vuruşub. Dəqiq atəş zərbələri ilə erməni qəsbkarlarının mövqelərini və canlı qüvvələrini məhv edib. Əməliyyatların birində başından yaralanıb. Müalicə olunandan sonra yenə də döyüş meydanına qayıdıb. Döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb.



- Ermənistan ordusunun təxribatı nəticəsində Vətən müharibəsi başlanan kimi, bizim batareyanı da döyüş əməliyyatlarına cəlb etdilər, - deyə kiçik çavuş söhbətinə davam etdi. - İlk döyüşlərimiz Suqovuşan və Talış kəndləri istiqamətində oldu. Yağılar geri çəkilmir, müqavimət göstərir, torpaqlarımızdan çıxmaq istəmirdilər. Amma biz nəyin bahasına olursa-olsun, illərdən bəri işğalda qalan torpaqlarımızı azad etməliydik. Ermənilərin ciddi müqavimət göstərdiklərinə görə döyüşlər daha da gərgin xarakter alırdı. Atəş səslərindən yer-göy lərzəyə gəlirdi. Düşmənin geri çəkilməsi bizi yerimizdə çox dayandıra bilməzdi. Hücumlarımızı gücləndirən kimi yağılar qaçmağa başladılar. Torpaqlarımız addım-addım qəsbkarlardan azad olunurdu. Qazandığımız qələbələr, zəfərlər bizi yeni uğurlara ruhlandırırdı. Bu ruhdan güc alaraq erməniləri sıxışdıra-sıxışdıra irəli gedirdik. Heyət nəfərləri ilə birlikdə Suqovuşan və Talış kəndlərinin azad olunmasında yaxından iştirak etdik. Vətən müharibəsi ordumuzun qələbəsi və zəfəri ilə başa çatdı.

Döyüşlər bir daha göstərdi ki, hazırlığımız yüksək səviyyədədir. Amma buna baxmayaraq, hərbi hissə komandirinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq təlim keçir, yeni vərdişlərə yiyələnirik.

Səbair Rüstəmov ilə ovqatımıza ovqat qatan söhbətdən ürəyimiz açıldı. Yurdumuzu erməni işğalçılarından azad edən belə bacarıqlı və peşəkar hərbçilərimizlə fəxr etdik.

Heyət nəfərləri İlqar Həsənov, Cəlal Mustafayev və Ziya Əliyev dedilər ki, təlim-məşqlərdə həvəslə iştirak edirik. "Yeni hərbi biliklərə yiyələndikcə, döyüş hazırlığımızı, peşəkarlığımızı artırdıqca özümüzü daha güclü və qüdrətli hiss edirik. Güclü və qüdrətli olmaq isə bizi gələcək xidmətimizdə yalnız və yalnız zəfərlərə, uğurlara qovuşduracaq. Vətən müharibəsində böyük igidlik göstərmiş zabit və əsgərlərimizin qəhrəmanlıq ənənələrini daim yaşadacağıq".

İnanırıq ki, qəhrəmanlıq ənənələri belə cəsur əsgərlərin igidliyi sayəsində cəmiyyətimizdə daim yaşayacaq. Belə dəyərli ənənələrin yaşaması isə gələcək nəsillərin də vətənpərvərlik ruhunda böyüməsinə güclü təkan verəcək.

**Vahid MƏHƏRRƏMOV
"Azərbaycan Ordusu"**

# Helikopterlərlə uçuş məşqləri keçirilib



*Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin helikopter ekipajları ilə uçuş məşqləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşqlərin praktiki hissəsində gündüz və gecə uçuşları icra edən ekipajlar ərazinin qiymətləndirilməsi, hərəkət marşrutlarının öyrənilməsi və müxtəlif epizodlar üzrə tapşırıqlar icra ediblər.

Təlim uçuşunda qarşıya qoyulan tapşırıqlar helikopter ekipajları tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində yerləşən mövqeləri fevralın 20-si saat 20:50-də və Xocavənd rayonunun Tağaverd kəndi istiqamətində yerləşən mövqeləri isə fevralın 21-i saat 01:15-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən heç bir səbəb olmadan atıcı silahlardan atəşə tutulub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən cavab tədbirləri ilə qarşı tərəf susdurulub.

## Azərbaycan XİN: Aqressiv separatçılıq bölgədə onilliklər ərzində davam edən genişmiqyaslı fəlakətə gətirib çıxarıb

*Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) radikal ermənilərinin aqressiv separatçılığının əsasını qoyan 1988-ci il 20 fevral tarixli qeyri-qanuni qərarını dəstəkləyən bəyanatını qətiyyətlə qınayırıq.*

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan XİN-in aqressiv separatçılığa bəraət qazandıran bəyanatına dair şərhində deyilir.

Şərhdə qeyd olunub ki, sözügedən qondarma qərar SSRİ Konstitusiyasına, DQMV haqqında 1981-ci il Qanununa, habelə bütün digər müvafiq normativ hüquqi aktlara ziddiyyət təşkil edib.

"Ermənistanın aqressiv erməni separatçılarını dəstəkləməsi və Azərbaycana qarşı ərazi iddialarından çıxış edərək təcavüzkar siyasət həyata keçirməsi Azərbaycanın ərazilərinin bir hissəsinin 30 ilə yaxın hərbi işğal altında qalmasına, bu torpaqlarda qanlı etnik təmizləməyə, bir milyon azərbaycanlının fundamental hüquqlarının pozulmasına səbəb olub.

Ermənistan XİN-in "dirçəliş" kimi qiymətləndirdiyi aqressiv separatçılıq bölgədə onilliklər ərzində davam edən genişmiqyaslı fəlakətə gətirib çıxarıb. Bu vəziyyət bölgənin uzun illər ərzində sülh və təhlükəsizlik şəraitində inkişafına ciddi əngəl törədib.

Hazırda bölgədə beynəlxalq hüququn bərqərar olduğu və iki dövlət arasında münasibətlərin normallaşması istiqamətində cəhdlərin edildiyi bir vaxtda Ermənistan XİN-in xalqlararası nifaqı təşviq edən bəyanatla çıxış etməsi bir tərəfdən bu ölkənin məsuliyyətsiz davranışını, digər tərəfdən isə baş verən son hadisələrdən hələ də dərs çıxarmadığını göstərir.

Ermənistan XİN-in nəzərinə çatdırırıq ki, belə bir destruktiv yanaşmanın heç bir gələcəyi yoxdur", - deyə Azərbaycan XİN-in məlumatında bildirilib.

## ANAMA: Ötən həftə 115,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib




*Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.*

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, fevralın 14-dən 19-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 27, tank əleyhinə 15 mina və 233 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 115,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Komandoların təlim-məşqləri davam edir

*Döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissəsində təlim-məşqləri keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, real döyüş şəraitinə uyğunlaşdırılaraq keçirilən praktiki məşğələlərdə müxtəlif taktiki fəaliyyətlər icra olunub.

Komandolar təlimlərdə qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla gecə və gündüz keçirilən təlimlərin əsas məqsədi komandoların peşəkarlıq səviyyəsinin artırılması və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

*Gənc zabitlərimiz*

## "Müqəddəs vəzifənin icraçısıyıq"



Qəhrəmanlarla dolu bir tarix yaşayır Vətənimiz. Bu qəhrəmanlar xalq tərəfindən sevilir, yaşayır və yaşadılır. Onların yazdığı tarix unudulmur, əksinə, dastana çevrilir. Əzəldən əlverişli coğrafi şəraitinə, yeraltı və yerüstü təbii sərvətlərinə görə torpaqlarımıza göz dikən düşmənlərimiz çox olub. Lakin onların qarşısına hər zaman igid, mərd, cəsur Vətən oğulları çıxıb. Doğma torpağı üçün canını əsirgəməyəcək cəngavərləri görən düşmən ya qorxudan geri çəkilib, ya da mübariz döyüşçülərimiz tərəfindən darmadağın edilib. Bu gün də əcdadlarımızın qəhrəmanlıq irsini layiqincə davam etdirən oğullarımız ərazi bütövlüyümüzü inamla qoruyurlar. Azərbaycan Ordusunun sıralarında belə mərd oğullara hər addımda rast gəlirik. Onlar seçdikləri şərəfli peşənin müqəddəs vəzifələrinin öhdəsindən layiqincə gəlir, Vətən sevgisindən güc alaraq torpaqlarımızı qətiyyətlə qoruyurlar.

Mütəmadi olaraq Vətən müharibəsində şücaət göstərən və hal-hazırda xidmətini uğurla davam etdirən igidlərimizlə xidmati yerlərində tanış olur, müxtəlif yazılar hazırlayırıq. Onlardan biri də leytenant Elcan İsmayılovdur.

Elcan Mahmud oğlu İsmayılov 1998-ci il fevralın 16-da Ağstafa rayonunun Poylu kəndində dünyaya göz açıb. Kiçik yaşlarından düşmənə nifrət hissi ilə böyüyən Elcan da hər bir azərbaycanlı kimi Şuşanı azad görmək arzusunda olub. Bu səbəbdən də torpaqlarımızın azadlığı uğrunda döyüşəcəyini, hərbçi peşəsinə yiyələnməyi qərara alır. Bu qərar 2013-cü ildə Elcanı Cəmşid Naxçıvanski adına hərbi liseyə gətirir. Təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirir. 2020-ci ildə həmin təhsil ocağının məzunu olan leytenant Elcan İsmayılov uşaqlıq arzusuna çatır.

"Böyük bir fəxrdir ki, biz doğma yurdumuzu işğalçılardan təmizlədik", - deyərək Elcan söhbətə başladı. - Ərazi bütövlüyümüzün bərpası uğrunda gedən haqq savaşımızda iştirak etdim. İndi də müqəddəs vəzifənin icraçısıyıq. Azad edilmiş torpaqlarımızı qoruyuruq.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan "Dəmir yumruq" əks-hücum əməliyyatı zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirərək, düşmənin məhv edilməsində fərqləndiyinə görə leytenant İsmayılov Elcan Mahmud oğlu Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edərək şəhidlik zirvəsinə yüksələn Vətən övladlarının xatirəsinə ehtiram məqsədilə anım mərasimləri keçirilib.

Vətən Müharibəsi Qəhrəmanı şəhid Ramiz Qasımovun və Vətən müharibəsi şəhidləri İbrahim Əliyevin, Səid Ədilovun, Elməddin Hüseynzadənin xatirəsinə həsr olunan tədbirlərdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, dostları, eləcə də döyüş yoldaşları iştirak ediblər.

Anım mərasimlərində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Şəhidlərin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarxlar təqdim olunub.

Çıxış edənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı parlaq Zəfərin tarixi əhəmiyyətindən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən danışıblar.

Şəhidlərin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



Keçirilən mərasimlərdə şəhidlərimizə həsr olunan şeirlər, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirilib.

# Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilən cinayətdir

**(Əvvəli ötən sayımızda)**

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994-cü il tarixində "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edilmişdir.

Ulu öndər Heydər Əliyev hər çıxışında xalqın dərdinə şərik olaraq deyirdi: "...Ermənistanın təcavüzü başlanandan indiyə qədər təxminən 16 min azərbaycanlı şəhid, təlef olmuş, 22 minə qədər adam yaralanmış, bir milyona yaxın adam isə qaçqın düşmüşdür. İndi qaçqınlarımızın, məcburi köçkünlərimizin sayı bir milyondan artıqdır. Kəndlərimiz, şəhərlərimiz, qəsəbələrimiz viran olmuşdur... Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur. Bütün bu qanlı faciələrin qarşısının alınmasında, o cümlədən, Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın o zamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalifət qüvvələri də birbaşa məsuliyyət daşıyırlar... Faciə haqqında dünya ictimaiyyətinə geniş məlumat vermək, beynəlxalq aləmə həyəcan təbili çalmaq əvəzinə, Xocalı dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər...".

Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatından bir hissə: "1992-ci il fevralın 26-da Ermənistan Respublikasının silahlı birləşmələri, Dağlıq Qarabağdakı yerli erməni yaraqlıları və keçmiş Sovet ordusunun 366-cı motoatıcı alayı Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Xocalı şəhərini sakinləri ilə birlikdə büsbütün məhv edərək insanlığa silinməz ləkə olan soyqırımı aktı törətmişlər. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduğuna görə qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qoyulmuşlar. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmışlar". "Xocalı şəhərində törədilmiş müdhiş cinayətin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunmuş müddəalara tam uyğun gəldiyini sübut edir. Bu kütləvi və amansız qırğın aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla, təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlıq əleyhinə törədilmiş qəddar cinayət aktıdır. Erməni millətçiləri Xocalıda bu soyqırımı əməlini törədərkən doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqını qorxutmaq, onun mübarizə əzmini qırmaq və məhv etmək niyyəti güdmüşlər. Azərbaycan Respublikasının o dövrdəki prezidenti Ayaz Mütəllibovun və digər rəhbərlərinin cinayətkar səhlənkarlığı erməni millətçilərinin bu ağır cinayət əməlini törətməsinə şərait yaratmışdır. Hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi nəticəsində Xocalının müdafiəsi lazımi səviyyədə təşkil edilməmiş, şəhərin dinc əhalisinə heç bir köməklik göstərilməmişdir. Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına 2002-ci il 25 fevral tarixli müraciətində qeyd edirdi: "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir".

Prezident İlham Əliyev isə Xocalı faciəsilə bağlı fikirlərini bir daha açıqladı: "Ümummilli liderimiz Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra bu qanlı cinayət siyasi-hüquqi qiymətini almış, onun dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımı kimi tanınması üçün tədbirlər görülmüşdür".

Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciətindən: "Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovinist-millətçilərinin regionda həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir".

Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli fəaliyyət göstərməkdədir. "Xocalıya Ədalət!" kampaniyasının təşəbbüskarı olmaqla, Heydər Əliyev məktəbinin yetirməsi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın siyasi fəaliyyəti ilə müstəqil Azərbaycanın çırpınan ürəyi kimi dünyanın ən mötəbər tribunalarından beynəlxalq terrora "Yox!" deyərək, 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində erməni silahlı qüvvələri, terror dəstələri tərəfindən dinc əhaliyə qarşı törədilmiş Xocalı soyqırımına dair həqiqətlər haqqında dünya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd qoymuş və davamlı tədbirlər keçirmişdir, haqqın yer üzündə bərqərar olması üçün hamını birliyə səsləmişdir.

Prezident İlham Əliyev Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində vurğulamışdır ki, "Azərbaycan dövləti erməni faşistlərinin törətdiyi Xocalı faciəsi haqqındakı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmdə soyqırımı kimi tanıdılması istiqamətində iyirmi ilə yaxındır ki, məqsədyönlü və sistemli iş aparır".

Leyla Əliyeva çıxışında qeyd edirdi: "Xocalıda azərbaycanlılara qarşı törədilmiş soyqırım Azərbaycan tarixinə ən dəhşətli və qara səhifələrdən biri kimi həmişəlik yazılmış faciədir, Xocalının dinc sakinlərinə qarşı bu qəddarlığın, bu vəhşiliyin səbəbi nə idi? Axı onlar, heç bir silahlı müqavimət göstərmədən geri çəkilirdilər. Deməli, bu, qəsdən törədilmiş aksiya, Azərbaycan xalqına qarşı əsl soyqırım, kütləvi vahimələndirmə aksiyası idi. Lakin zaman göstərdi ki, Azərbaycan xalqının əzmi qırılmamışdır və heç vaxt qırıla bilməz. Biz, sağ qalanlar, bu faciə haqqında həqiqəti bütün dünyaya çatdırmalı, baş vermiş hadisəyə beynəlxalq siyasi və hüquqi qiymət verilməsinə nail olmalıyıq. "Xocalıya Ədalət!" kampaniyası həqiqətə, ədalətə, bütün dünyaya, bütün lazım olan ümumbəşəri dəyərlərə istiqamətlənmişdir." "Xocalı faciəsinin beynəlxalq birlik tərəfindən insanlığa qarşı cinayət və soyqırımı aktı kimi tanınmasına nail olmaq hər bir azərbaycanlının vəzifəsi, o cümlədən mənim də vəzifəmdir. Bu cinayət bir daha təkrarlanmamalıdır".

2007-ci il fevralın 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Brüsseldə təşkil olunan "Təcavüzün qurbanları" adlı foto və uşaq rəsmlərinin sərgisi, Türkiyənin İstanbul və daha 25 vilayətində "Xocalı həftəsi" adlı tədbirlər proqramı çərçivəsində anım mərasimləri keçirilmişdir.

Prezident İlham Əliyev vurğulayırdı: "Bizim əzəli torpağımız olan Qarabağ bu gün siyasi və hüquqi cəhətdən Azərbaycanın ayrılmaz hissəsidir. Ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz. Heç vaxt Azərbaycan öz ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcək".

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Dövlət başçısı demişdir: "Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir "dəmir yumruq" yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim "dəmir yumruq"umuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu "dəmir yumruq" düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq".

Prezident İlham Əliyev ölkə iqtisadiyyatını inkişaf etdirərək, 30 il ərzində xarabazara çevrilmiş Qarabağ torpaqlarını yenidən dirçəldərək, Azərbaycanı yeni zirvələrə doğru aparmaqdadır. 44 günlük Vətən müharibəsində qələbənin əldə olunmasında müzəffər Ali Baş Komandanın tapşırıqları, həmçinin müharibə dövründə və ondan sonrakı dövrdə diplomatik əlaqələrin düzgün və korrekt qurulması hesabına region və dünya miqyasında aparıcı dövlətlərlə aparılan danışıqlarda milli maraqlarımızın tam təmin olunmasına gətirib çıxarması, ən nəhayət Türkiyə ilə Azərbaycan arasında bütün sahələri ehtiva edən Şuşa Bəyannaməsinin imzalanması Prezident İlham Əliyevin uğurlu siyasi strategiyasının nəticəsidir. Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurlu strategiyasının nəticəsində Azərbaycanın azad edilmiş torpaqlarına bundan sonra həyat qayıdacaq.

**Günel MƏLİKLİ**
**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının professoru**

# Xocalı faciəsi: bir şahidin dilindən

*Tarixin tükürpədici dəhşətləri zaman keçdikcə üzə çıxır, yaraları qaysaq bağlamır. Qan sızan o yaraları gizlətmək mümkünsüzdü. Xocalı faciəsi kimi.*

XX əsrdə düşmənlərimizin Azərbaycan xalqına yaşatdığı Xocalı faciəsi inanılmaz dərəcədə dəhşətli faktlara, miqyasına və mahiyyətinə görə tarixdə Holokost, Xatın, Oradur soyqırımı kimi insanlıq tarixinə yazılan qanlı olaylarla birgə xatırlanır. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb. Soydaşlarımız tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən törədilmiş kütləvi qırğınlarla müşayiət olunub. Xocalı faciəsi bunların içində xüsusi amansızlığına görə seçilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının ildönümü münasibətilə xalqımıza müraciətində dediyi "Heç bir hərbi zərurət olmadan yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur" kəlamında faciə bütün mahiyyətiylə ifadə olunub.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə müsibət, belə vəhşilik görməmişdi. O müdhiş gecədən 30 il keçir.

Xocalı faciəsini ömrü boyu unutmayacaq canlı şahidlərdən biri də səkkiz gün erməni əsirliyində dəhşətli işgəncələrə məruz qalmış Dürdanə Ağayevadır.

Dürdanə xanım Xocalı qətliamında əsir götürülənlərdən biri idi. 20 yaşı vardı onda Dürdanənin. Həyatının cəhənnəmi hesab etdiyi əsrə bərabər 8 günü yaşamamaq üçün nələr etməzdi... O səkkiz günün hər anı Allahdan ölüm diləyib, amma… Onun qismətində istəməsə də, yaşamaq vardı: sağ qalıb, erməni vəhşiliyini dünyaya car çəkmək üçün…

İnsan keçmişini deyil, gələcəyini düşünüb yaşayır, ancaq keçmiş heç zaman unudulmur. O da keçmiş günləri, əzab-əziyyətləri heç zaman unutmayacaq.

- 1972-ci ildə Xocalıda anadan olmuşam. 1989-cu ildən Xocalı Telefon Qovşağında telefonçu işləmişəm. Hər il fevralın 25-dən 26-na keçən gecə, demək olar ki, havalanıram. Həmin tarix gözümün önündə canlanır. İnanın ki, 1992-ci ildə nələri yaşamışıqsa, hər dəfə eyni hissləri keçirirəm. Çox dəhşətli duyğudur...

Dürdanə xanım deyir ki, Xocalı faciəsindən 10 gün qabaq işdə olarkən telefona bir zəng gəldi. Kobud səsli bir kişi mənə az qaldığını, kökümüzü kəsəcəklərini, bizi oda qalayacaqlarını dedi. Həmin zəngdən bərk qorxmuşdum. Naməlum zəng haqqında Milli Qəhrəmanımız, Xocalı aeroportunun rəisi Əlif Hacıyevə məlumat verdim. Əlif Hacıyev də məni sakitləşdirmək üçün bunun heç zaman olmayacağını bildirdi. Bir az keçmiş gəldi iş yerimizə və bizə dedi: "Görün kimdən, erməni dığalarından qorxursunuz. Biz ölməmişik ki. Qorxmayın, ürəkli olun". Ermənilər Əlifdən çox qorxurdular. Onun bizə ürəkdirək verməsinə baxmayaraq, onlar dediklərini elədilər. Erməniyə də güc verən 366-cı motoatıcı alay, keçmiş Sovet ordusu oldu…".

Faciə baş verənə qədər Xocalı sakinlərinin böyük əksəriyyəti şəhərdə olub. Çox az sayda qadın və uşaqlar çıxarılıbmış. İnsanların şəhərin blokadadan çıxarılacağına, kömək gələcəyinə ümidləri böyük idi. Düşünürdülər ki, düşmən tezliklə geri oturdulacaq. Şəhər hər gün atəşə tutulurdu. Fevralın 24-də növbədə olan müsahibim deyir ki, başda Bakı olmaqla bütün rayonlarımıza zəng edərək kömək istəyib. Fevralın 25-də tam bir sakitlik hökm sürürmüş. Tufandan önəcki sakitlik… Sən demə, düşmənin başı şəhəri zirehli texnika ilə mühasirəyə almağa qarışıbmış. İnsanlar isə bu gecə evlərində rahat yatacaqlarına sevinirmişlər.

"Gecə saat 11-ə 20 dəqiqə qalmış düşmən şəhəri atəşə tutmağa başladı. Top, tank səslərindən qulaq tutulurdu. Gecəyə doğru atəş səsləri daha da kəskinləşdi. Vəziyyət ağırlaşanda camaat bir müddət evlərin zirzəmilərində gizləndi. Gələn səslərdən anlayırdıq ki, tanklarla, toplarla evlərimizi dağıdırlar. Güllələrin işığından hər yer işıqlanırdı. Az sonra xəbər gətirdilər ki, düşmən Xocalı aeroportuna girib. Aeroport da xocalıların yeganə çıxış yolu idi. Bu xəbərdən sonra zirzəmidə qalmağın mənasız olduğunu anladıq. Şəhərdən uzaqlaşmağa məcbur olduq. Təxminən gecə saat 1-2 radələri olardı. Sakinlər şəhəri tərk edirdilər…".

O gecə xocalıların ürəklərinə nəinki 30 il, hətta əsrlər keçsə belə sönməyən od vuruldu. Ana-baladan, bacı-qardaşdan ayrı düşdü. Düşmən yalquzaq tək qocaya, xəstəyə, qadına, körpəyə aman vermədi. Uşaqları valideynlərinin, valideynləri övladlarının gözləri qarşısında xüsusi qəddarlıqla qətlə yetirirdilər.

"Ölənə qədər yadımdan çıxmaz: Qucağında uşaq olan ananı vurdular, yerə yıxılan ananın qucağındakı uşaq "ana" deyə qışqırıb ağlamağa başladı. Azğınlar uşağı da güllələdilər. Ana ilə övladının qanı bir-birinə qarışdı. Yanımda yeddi aylıq hamilə qadın vardı, güllə ilə başından vurdular...".

Min bir əziyyətlə Qarqar çayının sahilinə gəlib çıxıblar. Qışda qar dizə çıxan bir vaxtda buz bağlamış çayın buzu-



nu qıra-qıra qarşı tərəfə keçiblər. Neçə nəfər donub elə oradaca qalıb. Çayı keçəndən sonra 366-cı alayın törətdiyi dəhşətli cinayəti görüblər.

Dürdanə xanım deyir ki, o buz kimi havada qarı yara-yara Ağdam istiqamətinə qaçırdıq. "Hər tərəf insan meyitləri idi. Qara Qayanın üstündə əsir düşdük. Erməni dığaları birdən qarşımızı kəsib, bizi atəşə tutdular. Xocalıların yükü balaları idi. Elə bir ana yox idi ki, onun bağrında övladı olmasın. Mən ayağımdan güllə yarası aldım. Anam və qardaşlarımdan o qarışıqlıqda ayrı düşdüm. Sürünə-sürünə gəlib çıxdım xəndək kimi bir yerə. Qardaşım Elşad da burada idi. O da yaralanmışdı. Biz sürünə-sürünə gedirdik, ermənilər qarşımızı kəsib dedilər ki, qalxın ayağa, sizi öldürməyəcəyik. Onlar Azərbaycan dilində təmiz danışırdılar. Mən də qardaşım Elşaddan tutub gedirdim, yanımızda Valeh, bir də Qanboy adlı bir oğlan və onun 5 yaşlı uşağı var idi. Bizi 3 kilometr piyada apardılar. Palçığa bata-bata, yıxıla-yıxıla gəlib çatdıq Əskəran rayonuna. Hamımızı üzü üstə asfalta uzatdılar…".

Ermənilər onu çox incidiblər, əllərini qapı arasına qoyublar, başını yerə qoyub ayaqları ilə vurub, torpaq yedizdiriblər. O, daha çox döyülüb, işgəncə görüb - rabitəçi olduğuna görə…

"Biz əsir götürüləndə qadınları kişilərdən ayırdılar. Həmin gün mən əlimi Elşaddan üzdüm. Dəhşətli günlərim başladı...

Orada Vitaliy Balasanyan var idi. O, Allahverdi Bağırovla əsirlərin dəyişdirilməsində əlaqə yaratmışdı və buna rəhbərlik edirdi. Deməli, getməmişdən bir gün qabaq Vitaliy məni yanına çağırıb, məktub yazdırdı. Dedi ki, "buraxacam səni". Mən də dedim ki, "qardaşım Elşadı da buraxın, çünki ondan başqa heç kimim qalmayıb, bütün ailəm qırılıb. Elşadımı mənə verin". O da qayıtdı ki, "əgər öldürməyiblərsə, baxaram". Nəsə, Vitaliy Elşadı gətirdi. Elşad məndən bir yaş kiçikdir. Düşünə bilirsiniz, o cəhənnəmin içində belə şükür edirdim ki, Elşadın gözü önündə məni alçaltmadılar. Bu günün özündə də o günləri xatırlayanda ona sevinirəm".

Dürdanə xanım danışdıqca sanki nəfəsi köksünə sığmırdı, boğulurdu. Başını dik tuturdu, gözyaşları ürəyinə axırdı. Onun danışdıqları gözlərim önündə canlandıqca sanki damarlarımda qanım donurdu…

"20 yaşlı arıq, gənc qızın bütün paltarlarını əynindən çıxarıb təpikləyirlər. Saatlarla buz kimi su ilə dolu vannada saxlayandan sonra zəncirlə, dəmir parçası ilə döyürdülər. "Məni 3-4 erməni o qədər döymüşdü ki, elə biliblər ölmüşəm, götürüb atmışdılar qarın üstünə. Çöldə don vurmuşdu məni, kirpiklərim bir-birinə yapışmışdı. Gözümü neçə saatdan sonra açmışam. O gecə məni saçımdan tutub sürüyən erməni dedi ki, "hələ ölməmisən?". Hissiyyatım tamamilə yox idi, bütün əlimə vururdum, heç nə hiss etmirdim. Kürəyimə, ayaqlarıma batan şüşə qırıqlarının ağrısı isə dözülməz idi. Bircə dilim tərpənirdi… Orada Monte Melkonyan da Xocalıdan olan əsirlərə olmazın işgəncələr verirdi. Karo neçə-neçə oğullarımızı öldürdü, başını kəsdi, qız-gəlinlərimizə olmazın işgəncələr verdi. Məni Xankəndidən Əskərana aparanda soruşdu ki, "eviniz haradadır?". Evimiz yol qırağında idi deyə göstərdim. Evimiz iki mərtəbəli idi. Baxdım ki, ikinci mərtəbəsini dağıdıblar. Karo məni evimizin həyətinə apardı, orada öncə zəncirlə, sonra şlanqla o qədər döydü ki".

Dürdanə xanım deyir ki, o anlarda sanki ruhum bədənimdən ayrılmışdı. Gah bir kənarda dayanıb ağrıdan qıvrılan Dürdanəyə baxır, gah da xəyallara dalırdı. Artıq ağrını da hiss etmirdim. Xəyalımda evimizin 12 pilləkənindən düşüb dərsə gedir, pilləkəndə oturub kitab oxuyurdum. Anasının arzuladığı kimi şüşəbənddə qardaşı onu lampanın başına fırlayır, o 12 pilləkəni ağ gəlinlikdə düşürdü... Mən bunu o gün sadəcə xəyalımda yaşadım... Allah bunu mənə nəsib etmədi...

O müdhiş gecədən 30 il keçib. Amma işgəncə verilənlərin əzablı qışqırtıları, güllələnən, başı kəsilən günahsız insanların son baxışları hafizəmizdən silinmir ki, silinmir.

Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımı haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən də layiqincə davam etdirilir. Şübhəsiz ki, "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası da bu siyasi kursun həyata keçirilməsində, bilavasitə Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında uzaqgörənliklə düşünülmüş uğurlu bir yol xəritəsidir. Faciənin mənəvi və siyasi-hüquqi təminat almasına istiqamətlənmiş həmin kampaniya bu gün dünyanın bir çox ölkələrində uğurla həyata keçirilir.

İllərlə susub Dürdanə xanım. Susmağının səbəbi gəncliyi olub. Deyirlər, "elnən gələn dərdi toy-bayram kimi qəbul etməliyik". O da elnən gələn dərdi, qəbul edib, susub. Özünə qapanıb, hissləri, o dərdi-qəmi ürəyində boğub...

Düşmənin iç üzünü dünyaya bəyan etməyi qarşısına məqsəd qoyan Dürdanə xanım əsir olduğu səkkiz günlə bağlı "Erməni zindanında səkkiz gün" adlı kitab yazıb. 2015-ci ildə Türkiyədə işıq üzü görən kitabda əsirlik həyatını olduğu kimi əks etdirib. 2017-ci ildə kitab Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada rus dilinə tərcümə edilib. Dürdanə xanım deyir ki, "Erməni zindanında səkkiz gün" kitabı bütün xocalılılarındır. "Mən Xocalı faciəsinə görə dünyaya səs salan bir qadınam. Erməni vəhşiliyini bütün dünyaya yayacağam".

Müsahibim iki dəfə Amerikada, Romada, Moskvada olub. Hər il Türkiyədə Xocalı faciəsi ilə bağlı keçirilən tədbirlərə dəvət alır. Tədbirlərin birində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla da görüşüb, kitabını ona təqdim edib.

Xocalı faciəsini törətməkdə düşmənin niyyəti xalqımızın mübarizə əzmini qırmaq, qorxutmaq, tarixi torpaqlarımızın itirilməsi ilə barışmağa məcbur etmək idi. Xalqımızın başının üstünü qara buludlar aldığı o günlərdən illər keçsə də, düşmən məqsədinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətnləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi.

Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, şanlı Azərbaycan Ordusunun rəşadəti sayəsində işğal altında olan torpaqlarımız azadlığa qovuşdu, Xocalıda soyqırıma məruz qalanların qisası döyüş meydanında alındı.

Dürdanə xanım deyir ki, 44 günlük Vətən müharibəsində qəhrəman oğullarımız Xocalı qatillərini, insan cəlladlarını məhv etməklə günahsız soydaşlarımızın qanını yerdə qoymadılar. "Bununla da həmin şəhidlərin yaxınlarının, eləcə də bütün Azərbaycan xalqının yanan ürəyinə su çilədilər. Ordumuz tərəfindən məhv edilən Rüstəm Qasparyanı da Xocalıda görmüşdüm. O da bizlərə edilən işgəncələrin başında dururdu. Onun ordumuz tərəfindən öldürüldüyünü eşidəndə ən azından təsəlli tapdım. Vətənimizin mərd oğulları döyüş meydanında Xocalı cəlladlarını məhv etdilər, faşist xislətli ermənilərə heç zaman yadlarından çıxarmayacaqları dərs verdilər".

Dürdanə xanım inanır ki, yaxın gələcəkdə Azərbaycan dövlətinin yaratdığı "Xocalı muzey-şəhər"inə qayıdacağıq. Xocalıya hər hansısa nəqliyyat vasitəsinə bilet alıb birbaşa getməyəcək Dürdanə xanım. O dəhşətli gecədə necə ki, qorxu, vahimə içərisində qaçaraq, sürünərək göz yaşları içərisində tərk edib arxada qoyduğu Xocalıya çıxdığı kimi qayıdacaq. İllərdir kabusuna çevrilən qaranlıq, soyuq, qarlı meşədən, əsir düşdüyü Qara qayada dərindən bir nəfəs alaraq... Bu 30 il əvvəl yaşanmış ağrı-acılara təsəlli olacaq.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında daşqaldırma birinciliyi keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yarışdan əvvəl Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik-leytenant Vahid Məmmədov hərbi qulluqçular arasında idmanın kütləviliyinə nail olunması məqsədilə təşkil olunan birinciliyin keçirilməsi və təhlükəsizlik qaydaları haqqında məlumat verərək idmançılara uğurlar arzulayıb.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birinciliyə isinmə hərəkətlərindən sonra start verilib. 16 komandadan 90 idmançının 6 çəki dərəcəsində mübarizə apardığı daşqaldırma yarışları birdən və təkanla qaldırma üzrə keçirilib.

Hər çəki dərəcəsində qaliblər hər iki növ çalışmada yığılmış ən çox xalla müəyyən ediliblər. Şəxsi hesabda 60 kq çəki dərəcəsində əsgər Muraz Əhmədov, 65 kq çəki dərəcəsində baş çavuş Rəşad Həsənov, 70 kq çəki dərəcəsində əsgər Səməd Şıxıyev, 80 kq çəki dərəcəsində əsgər Maqsun Məmmədov, 90 kq çəki dərəcəsində əsgər Raul Qənizadə və 90 kq-dan yuxarı çəki dərəcəsində əsgər Qabil Bağırov birinci yerə layiq görülüblər. Yekun nəticələrə əsasən komanda hesabında üçüncü yerdə motoatıcılar, ikinci yerdə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandası, birinci yerdə isə xüsusi təyinatlılar qərarlaşıblar. Şəxsi və komanda hesabında ilk üçlüyə düşməyi bacaran qaliblərə kubok, diplom və fəxri fərmanlar təqdim edilib.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

*Tarix yazan oğullar*

# Bir gəncin həyat hekayəsi



Ailənin ilk övladı olan Abbasəli Tarverdiyev Babək rayonunda dünyaya göz açıb. Onda 1996-cı il idi. O da dünyaya müharibələrdən, düşməndən bixəbər saf, məsum bir uşaq kimi gəlmişdi. Böyüdükcə eşitdikləri, ekrandan izlədikləri, məktəbdə müəllimlərindən öyrəndikləri və müşahidə etdikləri onu tədricən peşə seçiminə istiqamətləndirmişdi. Sənədlərini Naxçıvan şəhərindəki Heydər Əliyev adına hərbi liseyə verən Abbasəli birinci ili arzusuna nail ola bilmir. Bu müvəffəqiyyətsizlik onu ruhdan salmır, qarşısına qoyduğu məqsədin ardınca gedir. İkinci ili arzusuna çatan Abbasəli fəxrlə kursant forması geyinir. Liseydə yaradılan yüksək tədris şəraitindən bəhrələnən gənc öz üzərində çalışır və təhsilini yaxşı nəticə ilə başa vurur. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini müvəffəqiyyətlə bitirir. "N" hərbi hissəsində xidmətə başlayır. Xidmət etdiyi dövrdə kurs və yarışlarda iştirak edir, bacarıqlarını daha da təkmilləşdirir.

Abbasəli Tarverdiyevin döyüş yolu Füzulidən, Cəbrayıldan, Xocavənddən keçir. Bir sıra hakim yüksəkliklərin və yaşayış məntəqələrinin azad olunmasında, düşmənin canlı qüvvəsinin və hərbi obyektlərinin məhv edilməsində şücaətlər göstərən Abbasəli noyabrın 1-i Xocavəndin Zoğalbulaq kəndində ağır yaralanır. Hərəkətdə olan hərbi avtomobil düşmənin hədəfinə tuş gəlir. Abbasəlinin sayıqlığı ilə avtomobilin içində olan digər hərbçilər də sağ qalır. Yaralı hərbçi yoldaşları ilə birgə ərazidən təxliyə olunur. Abbasəli həmin günləri belə xatırlayır: "Arxada nə baş verdiyini bilmirdik. Ancaq irəli gedirdik. Döyüş yoldaşlarımız gözümüzün qabağında şəhid olurdular. Bu, bizim intiqam hissimizi daha da alovlandırırdı. Yorğunluq, susuzluq bilmədən gücümüzü göstərməliydik. İllərdir bu məqamı gözləyirdik. Ona görə də həmin vaxt şüarımız da, amalımız da bir idi: "Hər şey Vətən üçün!" Sanki torpaq da bizə güc verirdi. O ərazilərə nabələd olsaq da, doğmalıq bizə cığır açırdı. Həmin vaxt yaşadığımız hissləri sözlə ifadə etmək indi çox çətindir. Bizə elə gəlirdi ki, sanki dağ da, daş da, torpaq da düşmənlə savaşır. Xalqımız bizə böyük ümidlər bəsləyirdi. O ümidi qırmağa haqqımız yox idi. Buna görə də illərlə formalaşan rəşadətli ordumuzun şəninə layiq qalib hərbçilər kimi geri döndük".

"Lakin geri dönməyənlərimiz də oldu", - səsi qırılır, gözlərini bizdən qaçırmağa çalışır, adları sadaladıqca qəhər və qürur qarışıq səsi bizi də həyəcanlandırır: "Leytenant Kamal Əbilov, Rauf Qurbanov, Güloğlan Qədimov, Elçin Əsgərov. Hər birinin timsalında bütün şəhidlərimizi ehtiramla anıram. Onlar mənim hərbi liseydəki taqım yoldaşlarım olublar. İtkiləri ilə barışmaq çətindir. Ən böyük təsəllim odur ki, şəhidlərimizin qisası yerdə qalmadı. Düşmənin layiqli cavabını verdik".

Baş leytenant Abbasəli Tarverdiyev döyüşdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Ötən il dekabrın 24-də şəhid ailələrinə və qazilərə verilən mənzillərdən birinin sahibi Abbasəli Tarverdiyevin ailəsidir. Babək rayonunda yeni mənzillə təmin olunan Abbasəli dövlətin göstərdiyi bu diqqətə fəal, daha məsuliyyətli xidməti ilə cavab verir: "Ölkəmizdə şəhid ailələrinə və qazilərə böyük diqqət var. Düzdür, biz döyüşə qiymətləndirilmək üçün getməmişdik. Bu, bizim Vətən qarşısında borcumuz idi. Dövlətimiz bizi dəyərləndirdi. Mənə verilən bu dəyər daha böyük məsuliyyət yaradıb. Nə qədər ki, canımda can var Vətənə, dövlətə sədaqətlə xidmət edəcəyəm. Mən, eyni zamanda, Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbinə hərbi rəhbər təyin olunmuşam. Bu isə mənə imkan verir ki, çağırışaqədərki gənclərə ilkin hərbi biliklər aşılayım. Hərbi-idman oyunlarında müvəffəqiyyətli iştiraklarını təmin edim, eləcə də məktəbin vətənpərvərlik tərbiyəsi istiqamətində gördüyü işlərə faydam olsun. Ən böyük məqsədim isə gənclər arasında hərbçi peşəsinə marağı artırmaq, hərbi liseyə yönəltməkdir. Bu gün fiziki imkanlarım orduda xidmət etməyimi məhdudlaşdırsa da, bütün mənəvi imkanlarımı səfərbər edib hərbi rəhbər kimi böyüməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsinə sərf edəcəm".

Vətənpərvər bir gəncin qısa həyat hekayəsi onu göstərir ki, məqsəd olan yerdə nəticə mütləqdir. Peşəyə sevgi bəsləsən, bütün əngəlləri aşarsan. O peşə sənə zövq verər. Ehtiyatda olan baş leytenant Abbasəli Tarverdiyev bu gün öz missiyasını digər bir formada həyata keçirir. Bir məktəbin hərbi rəhbəri kimi gələcəyin əsgərlərinin dünyaduyumunu formalaşdıranların sırasındadır.

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan Televiziyasının baş redaktoru**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədən Yunanıstana keçməyə cəhd göstərən PKK terrorçusu saxlanılıb



Türkiyədə qanunsuz yollarla Yunanıstana keçməyə cəhd göstərən üç nəfər saxlanılıb. Sahil Mühafizə Xidmətinin əməkdaşları tərəfindən ələ keçirilən həmin şəxslərdən birinin PKK terror təşkilatının üzvü olduğu müəyyən edilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən məlumat verilib.

Həmin şəxslər aidiyyəti qurumlara təhvil veriliblər.

## İranda hərbi təyyarənin qəzaya uğraması nəticəsində üç nəfər həlak olub



Fevralın 21-də səhər saatlarında İranın Şərqi Azərbaycan vilayətində F-5 tipli hərbi təlim təyyarəsi qəzaya uğrayıb.

Təyyarə Təbriz şəhəri üzərində havada olarkən pilotun idarəetməni itirməsi nəticəsində məktəbin üzərinə düşüb. Hadisə nəticəsində iki pilot və bir mülki şəxs həlak olub.

Hadisə yerinə xilasedicilər və təcili tibbi yardım briqadaları göndərilib.

## Nigerdə hava hücumu nəticəsində 7 azyaşlı ölüb, 5 nəfər yaralanıb



Nigeriya hərbi hava qüvvələrinin Nigerdə həyata keçirdiyi hücum nəticəsində 7 azyaşlı ölüb, 5 nəfər yaralanıb.

Nigerin Maradi bölgəsinin qubernatoru Chaibou Abubakar hava hücumu nəticəsində 4 nəfərin hadisə yerində, digər 3 nəfərin isə xəstəxanada öldüyünü bildirib. O, təyyarələrin iki ölkə sərhədində yerləşən ərazilərdəki silahlı dəstələri hədəfə aldığına inandığını, lakin hədəfə çata bilməyərək Nachade kəndini vurduğunu söyləyib.

Nigeriya rəsmiləri faktla bağlı araşdırma aparıldığını qeyd ediblər.

Qeyd edək ki, Niger və Nigeriya bölgədə silahlı dəstələrə qarşı birgə hərbi əməliyyatlar aparır. 2018-ci ildən bəri Niger silahlı dəstələrinin müdaxiləsinin qarşısını almaq üçün Nigeriya ilə sərhəddə hərbi qoşunları gücləndirib.

## Son səkkiz ildə NATO ölkələrinin hərbi büdcələri 270 milyard dollar artıb



2014-cü ildən bu yana ABŞ istisna olmaqla, NATO-ya üzv ölkələrin hərbi büdcələri 270 milyard dollar artıb.

Təhlükəsizlik üzrə Münhen konfransında çıxış edən NATO-nun Baş katibi Yens Stoltenberq bunun müharibə təhlükəsinin qarşısının alınması üçün edildiyini deyib.

"NATO-nun Avropa ölkələri və Kanada son illər (alyansın 2014-cü ilin sentyabrında Uelsdə keçirilən sammitindən sonra) hərbi xərclərini 270 milyard dollar artırıblar. Bu pullar növbəti müharibənin qarşısını almaq əzmimizi nümayiş etdirmək üçün lazım olan yeni silahların əldə olunmasına yönəldilib", - deyə Yens Stoltenberq bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

# Vətən sənə əmanət, Azərbaycan əsgəri!



***"N" hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Təntənəli keçid zamanı əsgərlərin hər birinin üzündə məğrurluq sezilirdi. Qalib ordunun əsgəri olmağın sevincindən doğan məğrurluq olduğunu düşünürəm. Mərasim başa çatdıqdan sonra əsgərlərin arasına qarışır, söhbətləşir, hərbi xidmət haqqında düşüncələrini öyrənirəm. Onların hər birinin dilində Vətən, Qələbə, Zəfər kəlmələri vardı. Maraqlı həmsöhbət olaraq yaddaşıma həkk olunan əsgər Rəvan Nəzirov sözə "Vətən sağlamlığa bənzər, dəyəri itiriləndə bilinər" deyərək başladı. Rəvanla söhbətimiz elə bu məcrada davam etdi. Söz-sözü, kəlmə-kəlməni açdı, Vətəndən, torpaq dedik. Gənc əsgərin hər sözü Vətənə bağlılığından, gözləri düşmənə nifrətindən danışdı.***

"Vətəndən, Vətən sevgisindən bəhs edən filmlər çəkilib, unudulmaz dastanlar, şeirlər, hekayələr yazılıb. Lakin bunu dərk etmək üçün hərbi mundiri geyinmək, "Müsəlləh əsgərəm mən də bu gündən" deyə bilmək mütləqdir. Xalq şairimiz Səməd Vurğunun "Vətən keşiyində" şeirindən götürülən bu misra sanki bu gün üçün yazılıb. Andiçmə mərasiminin mahiyyətini açıqlayır".

Söhbət əsnasında Rəvan ailəsindən, dostlarından da danışmağı unutmadı. Atası Əliheydər kişinin nəsihətlərinə hər zaman əməl edəcəyini bildirdi.

- Əsla unutmayacağam. Uşaq vaxtı dostlarımdan biri ilə dalaşmışdım, - gənc əsgər dedi. - Atam etdiyim əməli öyrəndiyi an üzündəki ifadə məni çox qorxutdu. Çünki hər zaman atamdan sevgi, nəvaziş görmüşdüm. Çox keçmədən atam sözə başlamış, etdiyimin düzgün olmadığını bildirmişdi. O gün verilən nəsihəti, deyilən sözləri heç vaxt unutmaram. "Oğul, gücünü düşmənə saxla, bu gün güc göstərdiyin o uşaq sənə əsgər yoldaşı olacaq. Bəlkə də sinəsini sənə görə düşmən gülləsinə sipər edəcək". Həmin an əsgər olmağı arzuladım. Vətəni qorumaq, lazım gələrsə, əsgər yoldaşım üçün canımdan keçmək istədim. Artıq əsgərəm, gördüyünüz hər bir əsgər canımdan keçə biləcəyim can yoldaşımdır.

Azərbaycan əsgəri gücünü Vətənə bağlılığından, əsgər yoldaşını can yoldaşı adlandırmağından alır. Bunun əsas özəyi "Vətən sənə əmanət, Azərbaycan əsgəri!" kəlməsidir ki, 44 günlük Vətən müharibəsində əmanəti göz bəbəyi kimi qoruyan igidlərimiz canları, qanları bahasına Qarabağı azad etdilər.

**Kapitan**
**Ceyhun CƏFƏRLİ**
**"Azərbaycan Ordusu"**

*Vətən müharibəsinin şəhidlərinə*

# Qış fəsli, səhər yeli və bir cüt göz yaşı

*(esse)*



Payız biçimli qışdı...

2020-ci ilin payızında yağış olmadı; təbiət Azərbaycan əsgərinin döyüş yolunu nəmləndirmək istəməmişdi. İstəməmişdi ki, düşməni son nəfəsinə sıxışdıranların ayaqları çöldə-düzdə, yolda-izdə sürüşsün. Bu il də yağışlar yoxdu. Ağacların budaqlarında toxdaya bilməyən yellər yarpaqlardan yapışmaq istəyir. Rəngini sarılıq çökmüş yarpaqlar qopub yerə düşür. Ayaq saxlayıram. Yarpaqlar ağacların gövdəsinə, divarlara çırpıldıqca ürəyim göynəyir. Yarpaqların təntələk vurnuxmasına məhəl qoymadan ötüb-keçənlərə nəsə demək istəyirəm. Neçə il əvvəl şəhidlərə xitabən yazdığım şeiri xatırlayıram: "Yarpaq ömrü yaşamadınız..."...

İkinci Fəxri xiyabanın qənşərində 4-5 yaşlı bir uşağın xırdaca yerişi çəkir diqqətimi. Bilmək olmur, anamı uşağın əlindən tutub, uşaqmı anasının. Xırdaca addımlarla daş başıxların sırasından ötüb keçdilər. Görüm məsafəsində dayandılar. Ana əl dəsmalıyla şəhidin şəklini sildi, uşaq baş daşına sarıldı. Ananın yanaqları boyunca göz yaşları süzüldü. İçin-için ağlayırdı ana. Göz yaşlarını qızının görməsini istəmirdi. Bir ildi beləydi. Hərdən qəhərlənəndə də, dərd üstün gələndə də belə olurdu. Gecələr qızı yatandan sonra şəhid əri ilə səssiz söhbətləşirdi. Ona elə gəlirdi ki, göz yaşlarını özü deyil, Fərid silir...

Hospitalda tibb bacısı işləyirdi. Müalicə olunan xəstələrdən birinin baxışlarından sıxılırdı. Bu sıxıntılar çox çəkmədi. Palatada ikisi qalanda baxışlar sözə döndü:

- Müalicədən sonra bura yenə gələ bilərəmmi? Sizi görməyə...

Sevinc dillənmədi. Bu neçə gündə salam-sağoldan savayı kəlmələşmədiyi zabitdən eşitdikləri düşüncələrini titrətmişdi. Nə deyəydi? Deyəcəkləri haqqında düşünməliydi.

O gecə çox uzun gecəymiş. Bir mətləb iki ürəyin narahatlıq qütbünə dönmüşdü; Fərid üçün də uzun gecəydi, səhəri açılmaz gecəydi - "Görəsən nə deyəcək?", Sevinc üçün də - "Nə deyim?"...

Düşüncələr bir sevdanın işığına döndü. Bu sevda bu işığın dilmanclığıyla dil açdı o gecənin səhərisi. Evləndilər...

Sevdaları doğuldu. Dörd il əvvəl...

Fərid ezamiyyətə gəlmişdi. Üçlükdə İkinci Fəxri xiyabana da getmişdilər, şəhidlərin ziyarətinə. Fərid bunu vəfa borcu bilirdi. Xırdaca addımlarla məzarların arasıyla keçib irəliləyirdilər, hərdən bir neçə anlığa ayaq saxlayırdılar. Heç biri dillənmirdi. Baxışları şəhidlərin baxışlarıyla pıçıldaşırdı. Fərid birinin yanında dayanmışdı. Baxmışdı, baxmışdı və qolları başdaşına sarılmışdı. Anlar ötüşüncə Sevinc onun qolundan tutmuşdu. Bu təmas təsəlli təmasıydı. Şəhidin kimliyini ötən illərdə Fəridin söhbətlərindən eşitmişdi; Fəridin kursant yoldaşı idi.

Fərid yüngülcə bir ah çəkmişdi. Bayaqdan bəri gözlərini atasından çəkməyən qızını bağrına basmışdı. Üzünü iki damla yaş yandırmışdı...

- Ata, bu əmi kim idi? - handan-hana Sevda qəhərlə soruşmuşdu. Fərid qızının saçlarını oxşamışdı.

- Qəhrəman idi, qızım. Sənin nağıl qəhrəmanlarından da qoçaq, igid, gerçək qəhrəman idi, - demişdi. Sevda maraqla atasına baxmış, sonra istəklərlə ona qısılmışdı:

- Sən də qəhrəman olacaqsanmı, ata? - soruşmuşdu.

Fərid bir anlığa göy üzünə, sonra kursant yoldaşı olmuş şəhid zabitin daşlaşmış baxışlarına baxmışdı. Və "Bilmirəm, qızım, ancaq döyüş olanda qəhrəmanlar kimi vuruşacam..." demişdi. Sevda dillənməmişdi...

Heç biri Sevdanın nələr düşündüyünü bilməmişdi...

Şuşa uğrunda gedən döyüşlərdə şəhid oldu Fərid. Burada dəfn edildi. Bir ildi hər ay Fərid şəhid olan gün bura gəlirlər. Sevda atasının baş daşına sarılır. Sevdanın "Ata, mənim qəhrəman atam..." hönkürtüsü Sevincin gözlərindən yaş dərir...

Sevda atasının baş daşını qucaqladı. Ağlamadı. Dönüb anasına baxdı. "Şəhidi ağlamazlar, eləmi, ay ana?" soruşdu. Sevinc qızını bağrına basdı...

Sevdanın saçlarına iki damla göz yaşı düşdü...

Yel səngimişdi...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## İrina Zaretska Karate 1 Premyer Liqa seriyası yarışında qızıl medal qazanıb



Birləşmiş Ərəb Əmirliklərinin Fujeyra şəhərində keçirilən Karate1 Premyer Liqa seriyası yarışında Azərbaycan karateçisi İrina Zaretska qızıl medal qazanıb.

68 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız finalda İtaliya təmsilçisi Silvia Semeraronu məğlub edərək yarışın qalibi olub.

Komandamızın digər üzvləri Tural Ağalarzadə (67 kq) gümüş, Turqut Həsənov (84 kq) isə bürünc medal qazanıblar.

Qeyd edək ki, Azərbaycan komandası yarışda ümumilikdə 9 idmançı ilə təmsil olunub.

## Yeniyetmə cüdoçularımızdan ibarət komandamız açıq Avropa turnirini birinci yerdə başa vurub



Yeniyetmə cüdoçularımızdan ibarət komandamız İspaniyanın Fuengirola şəhərində keçirilən açıq Avropa turnirində uğurla çıxış edib.

Cüdoçularımız açıq qitə yarışında 5-i qızıl olmaqla, ümumilikdə 15 medal qazanıblar.

Belə ki, turnirin ikinci günündə yeniyetmə oğlanlar arasında 73 kiloqram çəki dərəcəsində final mərhələsində cüdoçularımız Əli Hacızadə və Süleyman Əliyev qarşılaşıblar. Görüşdə inamla mübarizə aparan Süleyman Əliyev qızıl medal qazanıb, Əli Hacızadə isə ikinci yerlə kifayətlənib. Daha bir gümüş medalı komandamızın aktivinə 90 kiloqramdan yuxarı çəki dərəcəsində yarışan Ramazan Əhmədov qazandırıb.

Yeniyetmə oğlanlar arasında komandamızın digər üzvləri - Camal Baxışov (81 kq), Məhəmməd Paşayev (90 kq) və Zaur Sarıoğlu (+90 kq) bürünc medala sahib olublar.

Yeniyetmə qızların mübarizəsində isə Fidan Əlizadə (57 kq) üçüncü yeri tutub.

Qeyd edək ki, turnirin birinci günündə cüdoçularımız 4-ü qızıl olmaqla 8 medal qazanmışdılar.

Beləliklə, 15 medal qazanan Azərbaycan komandası Fransa və İspaniya yığmalarını qabaqlayaraq ümumi hesabda birinci yeri tutub.

## Azərbaycan komandası "Böyük dəbilqə" turnirini ikinci yerdə başa vurub



Təl-Əvivdə keçirilən "Böyük dəbilqə" turnirində Azərbaycanın cüdo komandası uğurla çıxış edərək 2 qızıl, 1 gümüş, 1 bürünc medal qazanıb.

Qızıl medalları komandamızın aktivinə Hidayət Heydərov (73 kq) və Məmmədəli Mehdiyev (90 kq) yazdırıblar. Gümüş medala Yaşar Nəcəfov (66 kq), bürünc mükafata isə Zelim Kotsoyev (100 kq) sahib olublar.

Bununla da Azərbaycan komandası 34 ölkə arasında ümumi hesabda ikinci yeri tutub. Birinci yerdə 4 qızıl, 4 bürünc medalla Fransa, üçüncü pillədə isə 2 qızıl, 1 gümüş medalla Gürcüstan komandaları qərarlaşıblar.

Komandamız kişilərin mübarizəsində birinci yerə sahib olub. İkinci yeri 2 qızıl medalla Gürcüstan, üçüncü yeri isə 1 qızıl, 2 bürünc medalla İsrail komandaları tutublar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Alışov Taleh Müdrət oğluna məxsus AD № 0035097 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 297
Nüsxə 4673